# Alim ömrünün mənəviyyat və vicdan bütövlüyü

*Elə tarixi məqamlar var ki, istər-istəməz uzaq və yaxın keçmişə nəzər salmaq lazım gəlir. Heç kimin əvvəllər getmədiyi yolla hərəkət etmək üçün iradə və mərdlik tələb olunur: iradə ona görə vacibdir ki, seçim heç də aşkar deyil, mərdlik ona görə vacibdir ki, yolu başlanğıcda tənha getmək lazım gələcək.*

Mənalı həyat yolunda inamla addımlayan Natiq Cavadovun ömür karvanı zamanın sınaqlarından keçib. İnsanın doğulub boya-başa çatdığı torpaq ona çox əzizdir, harada yaşamağından asılı olmayaraq o doğulduğu eli, obanı, ev-eşiyi heç zaman unuda bilmir. O bənzərsiz illəri xatırlayan Natiq müəllim hisslərini bölüşür: yay mövsümü gələndə atam bizi üç ay yaylağa aparardı, yaylaqda alaçıqlar qurulardı, qız-gəlinlər diş göynədən bulaqlardan səhəngdə su gətirərdilər, ocaq qalanar, sac üstündə yuxa bişirilərdi, samovar tüstülənər, qara qoçun ətindən hazırlanan bozartma süfrəyə gətirilərdi, qonum-qonşu bir yerə cəm olardı. Telli saz köynəyindən çıxarılar, mizrab sarı simləri titrədər, qoşmanın, gəraylının, dastanın sehri sanki göy üzündəki buludların qəlbinə dəyərdi, ay Allah, buludlar da körpə uşaq kimi göz yaşı tökərdi. Bax beləcə uşaqlıq illəri bir nağıl, bir əfsanə kimi keçərdi.

Natiq müəllimin uşaqlıq illəri dağların ətəyində yerləşən, Xaçınçayın zümzüməsi ilə oyanan Əliağalı kəndində, Kolanı obalarında, Çinarlı bulağın başında, qətiyyəti, prinsipiallığı, haqqın tərəfində dayanması ilə tanınan Hacı müəllimin yurdunda keçib, ziyalı ailədə böyüyüb.

Ağdam rayonunun Əlimədətli kənd inzibati ərazi dairəsinə daxil olan Əliağalı kəndi 1930-cu ilə qədər Yelizavetpol quberniyasının Cavanşir qəzasının tərkibində olub. Kənd rayon mərkəzindən 30 km şimalqərbdə, Xaçınçayın sol sahilində, Qarabağ silsiləsinin şimalşərq hissəsindəki dağətəyi düzənlikdə yerləşir. Əliağalı kəndində orta məktəb, klub, kitabxana, tibb məntəqəsi, uşaq bağçası, kəndli-gənclər məktəbi var idi. Kənd 12 iyun 1993-cü ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal olundu. Qəsbkar haylar kəndi xarabalığa çeviriblər, ikimərtəbəli evlərdən əsər-əlamət qalmayıb, həyətlərdəki meyvə ağaclarını doğrayıblar. Qədim qəbiristanlığı dağıdıblar. Kənd Birinci və İkinci Qarabağ müharibələrində 42 nəfər şəhid verib. Kənd əhalisi 30 ilə yaxın məcburi köçkün həyatı yaşayıb, yaşlılar kənd deyə-deyə, yurd həsrəti ilə dünyalarını dəyişdilər, Əliağalının azad edilməsini görə bilmədilər. Azərbaycan Silahlı Qüvvələrinin bölmələri 2020-ci ilin noyabr ayında kəndə daxil olub. İşğalın ağır illəri artıq arxada qalıb.

Kənddəki yer adlarının çoxu qara sözü ilə başlayır ki, bu da həmin yerlərdə ta qədimdən türk mənşəli xalqların yaşamasından xəbər verir. Məsələn, Qarabulaq, Qaragüney, Qaraqaya, Qaradaş adları tarixin bütün ziddiyyətlərinə baxmayaraq, uzun əsrlər boyu yaşayıb. Qafqaz Albaniyası dövründə mənbəyini dağ bulaqlarından alan çayı Xaç(ın) adlandırıblar. Kənd öz təbiəti ilə dünyada bənzəri olmayan, ilahinin bəxş etdiyi bir guşədə yerləşir. Qarabağın ən gözəl guşələrindən olan, dağların-dərələrin qolboyun olduğu, buz bulaqların, ormanların havası, nəfəsi dolaşan, Xaçınçayın zümzüməli sahilində, qədim türk abidələrinin torpaqdan baş qaldırdığı Əliağalı kəndi Natiq Cavadovun ömür dastanında xüsusi yer tutur. İnsana mənəvi zövq verən, onun ruhunu təzələyən, min bir dərdin dərmanı olan bitkiləri ilə məşhur olan Əliağalı kəndindən başlanan yol onun taleyinə, qismətinə həmişə işıq salıb. Ağdam rayonu Əliağalı kənd orta məktəbinin 8-ci sinfini fərqlənmə ilə bitirdikdən sonra Bakı şəhərindəki 132 saylı məktəbdə orta təhsilini tamamlayıb. 1971-ci ildə Bakı Dövlət Universitetinin fizika fakültəsinə daxil olub. Ali təhsili başa vurduqdan sonra müxtəlif vəzifələrdə çalışıb.

Natiq Hacı oğlu Cavadov Milli Aerokosmik Agentliyin baş direktoru, texnika elmləri doktoru, Azərbaycan Texniki Universitetin professoru, Beynəlxalq və Azərbaycan Mühəndislik Akademiyalarının həqiqi üzvü, Beynəlxalq Ekoloji Təhlükəsizlik və Təbiətdən İstifadə İctimai Akademiyasının akademikidir. Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının Hərbi Təhlükəsizlik üzrə Ekspert Şurasının sədri, "Azərbaycan Mühəndislik Akademiyasının Xəbərləri", "Neft Sənayesində, Telemexanikada və Kommunikasiyalarda avtomatlaşdırma" kimi elmi-texniki jurnalların redaksiya heyətinin üzvüdür. 2011-ci ildən Azərbaycan Mühəndislik Akademiyasının Nəzarət Komissiyasının sədridir. Natiq müəllim 300-dən çox elmi məqalənin, 5 monoqrafiyanın, 1 dərs vəsaitinin, 5 müəlliflik şəhadətnaməsinin müəllifidir. Professorun elmi əsərləri İspaniya, Yunanıstan, İran, Türkiyə, Rumıniya, Rusiya, Belarus, Avstriya, Latviya, Danimarka, Böyük Britaniyada dərc edilib. Alimin elmi fəaliyyəti çoxşaxəlidir və geniş diapazona malikdir.

1986-cı ildə informasiya-ölçmə sistemləri üzrə namizədlik dissertasiyasını müdafiə etdikdən sonra müxtəlif rəhbər vəzifələrdə çalışıb, yenidən elmi fəaliyyətə qayıdaraq neqatron elektron qurğulara həsr olunmuş doktorluq dissertasiyasını müdafiə edib.

Alimin elmi yaradıcılığı bir çox elmi-texniki sahələri, o cümlədən məsafədən aerokosmik tədqiqatları, ekologiyanı, atmosfer ölçmələrini, informasiya-ölçmə sistemlərini, CPS ölçmələrini, nanotexnologiyanı, iqlimşünaslığı, texniki diaqnostikanı, pilotsuz uçuş aparatlarının yaradılması və tətbiqi məsələlərini, digər tətbiqi elmi-texniki sahələri əhatə edir. Professor N.Cavadov torpağın neftlə çirklənməsi problemi üzrə tədqiqatlar aparmış, çirklənmə dərəcəsini müəyyənləşdirmək üçün orijinal metodlar təklif etmişdir. Torpaqda olan üzvi maddələrin kəmiyyətcə qiymətləndirilməsi üçün rəng əlamətindən istifadə edilməsi üsullarını aşkarlamış, müvafiq metodikalar irəli sürmüşdür. Torpağın nəmliyi dərəcəsini qiymətləndirmək üçün torpağın əksetmə spektrlərini tədqiq etmiş, informativ spektral əlamətləri müəyyənləşdirmişdir. Natiq müəllim müxtəlif mayelərdə az miqdarda neft karbohidrogenlərinin aşkarlanması üçün lazer-fluoressen üsul işləmiş, neft məhsulları ilə çirklənmiş torpaq sahələrinin bioremediasiyası üzrə qiymətli nəticələr əldə etmişdir. Professor qrunt sularının neft karbohidrogenləri ilə çirklənməsinin qarşısını almaq üçün reaktiv baryerlərin tətbiqi sahəsində optimallaşdırma üsulları, qrunt sularının təmizliyini təmin edən metodika, çoxkomponentli neft karbohidrogen birləşmələrinin biodegeredasiyasının effektivliyini artırmaq imkanına malik modellər işləmişdir.

Natiq Cavadov atmosfer ölçmələri sahəsində də əhəmiyyətli nəticələr əldə etmiş, atmosferdə olan ozonun miqdarını məsafədən yüksək dəqiqliklə ölçə bilən fotometrin yaradılması üzrə işlərə rəhbərlik etmiş, yeni ölçmə üsulunun nəzəri əsaslarını işləmişdir. Havanın temperaturu və su buxarları miqdarının ölçülməsi sahəsində qiymətli tədqiqatlar aparmış, yeni ölçmə metodikaları işləmişdir. O, iqlimşünaslıq sahəsində də tədqiqatlar aparmış, iqlim dəyişmələrinin səhralaşma ilə əlaqələrini araşdırmış, müvafiq riyazi modellər işləmişdir. Natiq müəllimin elmi fəaliyyətində nanotexnologiya xüsusi yer tutur. Nanotexnologiyanın nəzəri əsaslarına dair bir monoqrafiya və bir dərs vəsaitinin müəllifi olmaqla bərabər, karbonlu nanoboruların hərb sahəsində tətbiqinə dair qiymətli tədqiqatlar aparmış, hərbi texnikanın radarlar vasitəsilə aşkarlanmasının qarşısının alınmasında istifadəsini təklif etmişdir. Professor Cavadov pilotsuz uçuş aparatlarının geniş tətbiq sahəsinə malik olduğunu daim vurğulamaqla PUA-ların atmosfer ölçmələri sahəsində böyük potensiala malik olduğunu qeyd etmiş, hibrid multirotor tipli dronların tətbiqinin optimallaşdırılması üzrə model tədqiqatları aparmışdır. Neft sənayesi sahəsində, neft və qazın borularla nəql edilməsinə dair aparılan elmi tədqiqatlara rəhbərlik etmiş, bu cür boru kəmərlərindən sızma hadisələrinin aşkarlanması üzrə effektiv metodlar işləmişdir. Bütün bu dediklərimiz professor Natiq Hacı oğlu Cavadovu yüksək elmi potensiala malik olan azərbaycanlı alim kimi xarakterizə etməyə imkan verir.

Sadə, səmimi, mehriban, dostları, yoldaşları üçün arzuolunan, yaddan çıxmayan insandır, ömrünün anlarını, mənasını, çalarlarını, hərarətini illərin sınağından keçirən, arzuların anlara sığdıran, dünyanın hər yerindən görünən Natiq Cavadovun həyat düsturu, uğur hekayəsi əsl örnəkdir. Riyazi dillə desək, yaxşı insan teoreminin bütün çalarları onun əməllərində, arzularında, Vətən, yurd sevgisində, vətəndaş mövqeyində əks olunub. Doğma kəndindən başlanan həyat yolu onu elmin zirvəsinə doğru apardı, vaxtilə bir elin tanıdığı Natiq Cavadov indi dünyanın hər yerindən görünən alimdir. Natiq müəllim mənalı bir ömür yaşayan, eyni zamanda əsrin yetmişini öz taleyinə mərd-mərdanə yazan, açıq düşüncəli, zəngin təfəkkürlü, polemikaya hazır, demokratik dəyərlərə üstünlük verən insandır.

Məcburi köçkünlük illərində xeyli insana maddi və mənəvi yardım edən, çoxlarının qolundan tutan Natiq müəllimin comərdliyi, sədaqəti, etibarı onun canında-qanında, soyunda-köküdədir. Yurd itkisi, beşik ağrısı, söndürülmüş ata ocağı, uşaqlığımızı, nəfəsimizi öz divarlarında yaşadan evlərimizin uçurulmuş qalıqları, bir-birinə doğma olan qohum-əqrəbanın, mehriban qonşuların ayrı düşməsi, doğulub boya-başa çatdığın kənddən qovulmuş xatirələr düşmənin vurduğu ən ağır mənəvi yara kimi uzun illər ərzində bizi göynətdi, sızıldatdı, ancaq yıxa bilmədi, dözə bildik, ümidimizi və inamımızı itirmədik. Vətən, torpaq, yurd, ocaq, bayraq Azərbaycan xalqının ən müqəddəs dəyərləridir, mənəvi keyfiyyətidir, bu qiymətli ənənələr nəsildən-nəslə ötürülür, varlığına, taleyinə dəyən zərbələr nə qədər ağrılı və sarsıdıcı olsa da sınmayıb, əyilməyib, qamətini şax saxlayıb. Nəsildən-nəslə ötürülən qəhrəmanlıq ənənələri, mənəvi-əxlaqi keyfiyyətlər, tarixin ibrət dərsləri, kökə bağlılıq, tolerantlıq, ağsaqqal və ağbirçəyə hörmət, təkamülə, inkişafa can atmaq xalqımızın sınaqlardan keçən ən dəyərli keyfiyyətidir. Bütün bu keyfiyyətlər Natiq müəllimin həyatında xüsusi yer tutur. Natiq müəllim deyir ki, Qarabağ və Şərqi Zəngəzurun erməni işğalından azad edilməsi dünyada Azərbaycana münasibəti köklü şəkildə dəyişdi, şanlı Qələbə işğalın dondurulmasında maraqlı olan ermənipərəst dövlətlərin ovqatını korladı, müzəffər ordumuzun qəhrəmanlığı, Vətən sevgisi, qisas və düşmənə nifrət hissi, döyüş peşəkarlığı çoxlarının yuxusunu qaçırdı, ölümün gözünə dik baxan oğulların igidliyi düşmənlərimizin bağrına xəncər kimi sancıldı. Tarixi Zəfərdən sonra Azərbaycan dövləti, Qalib Ali Baş Komandan İlham Əliyev işğaldan azad edilən ərazilərdə tikinti-quruculuğun başlanılmasına qərar verdi və genişmiqyaslı işlər sürətlə davam etdirilir. Azərbaycan xalqı böyük sevinclə artıq dörd ildən çoxdur ki, Vətən müharibəsindəki möhtəşəm Qələbənin və şanlı Zəfərin xoşbəxt günlərini yaşayır. Sabaha inamımız çox güclüdür. Bu inamı bizdə Azərbaycan Prezidenti cənab İlham Əliyevin həyata keçirdiyi güclü daxili və xarici siyasəti yaradıb. Məhz bu qətiyyətli inam bizə ruh verir. Bizə beşik olmuş, qibləmizi, izimizi köksündə yaşadan doğma yurd haqqındakı xəyallarımızın, arzularımızın üstünə yenidən işıq düşür. Söhbətlərimizdə Natiq müəllim həmişə deyir ki, Qarabağa qayıtdığımız kimi Qərbi Azərbaycana da qayıdacağıq. Qarabağ Fatehi, Qalib Ali Baş Komandan türk dünyasının əzmkar sərkərdəsi, xalqının taleyini dəyişən Lider yaradıb bu inamı.



Həyat fəlsəfəsi dəfələrlə sübut edib ki, istedadlı adamlar çox sadə, təvazökar, mehriban, yanımcıl, etibarlı, səmimi və dəyərli olurlar. El arasında deyildiyi kimi, Natiq müəllim kölgə salan insandır. Gücü çatan qədər, imkanı daxilində əl tutar, köməyə çatar. Natiq müəllim, eyni zamanda böyük bir elin, ailənin, qohum-əqrəbanın üstünə kölgə salır. Elin ümid yeridir, övladlarının yolunda şam kimi yanır, onların yoluna nur saçır. Gözəl, səmimi, halal, gözütox bir ailənin başçısıdır. Həm də nəvə sevincini yaşayır. Natiq Cavadovun xarakteri belədir: vicdan təmizliyi, ideallıq, yüksək mədəniyyət, bütöv mənəviyyat, saflıq, əqidəlilik, insanpərvərlik, prinsipiallıq, obyektivlik və geniş təfəkkür. İnsan üçün ən böyük sərvət elə budur.

**Elçin İSGƏNDƏRZADƏ,**
**Elmi-Tədqiqat Aerokosmik İnformatika İnstitutunun direktoru, Əməkdar müəllim,**

**Salman ALIOĞLU,**
**Azərbaycan Yazıçılar Birliyinin üzvü.**